*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

№ 233 (29205) 20 oktyabr 2019-cu il, bazar

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

**Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hesab edirəm ki, Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir...**

**Əlbəttə ki, əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə, Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir. Beynəlxalq aparıcı maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirirlər. Mənim Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə çoxsaylı görüşlərim deməyə əsas verir ki, Azərbaycanda aparılan islahatlar yüksək qiymətləndirilir.**

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



❒ ***Azərbaycan dövləti ölkə əhalisinin maddi rifah halını daha da gücləndirmək üçün düşünülmüş sosialyönümlü siyasət aparır. Təsadüfi deyil ki, bu il oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlətimizin başçısı bir daha vurğuladı ki, ölkə iqtidarının siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır.***

# Dövlətin sosialyönümlü siyasəti məmnunluq doğurur

Fərəhli haldır ki, hazırda Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkələrdən biridir. Ölkəmizdə mütəmadi olaraq həm minimum əməkhaqqı, pensiyalar artırılır, həm də özünüməşğulluq proqramı geniş vüsət alır. Prezident İlham Əliyev tədbirdə qeyd etdi ki, bu il minlərlə insan bu proqramla əhatə olunacaq. Ölkəmizdə ünvanlı sosial yardım alanların sayı artır. İndi hər bir ailə orta hesabla 200 manatdan çox yardım alır.

Son illər Azərbaycanda aparılan sosial islahatların vüsəti və miqyası, həqiqətən, heyrətamizdir. Özünüz müqayisə edin: Bu ilin əvvəlində minimum əməkhaqqı 130 manat idi. Bundan sonra birinci islahat paketi çərçivəsində həmin məbləğ 180 manata, sentyabrın 1-dən isə 250 manata çatdırıldı. Bu, minimum əməkhaqqının orta yaşayış minimumunu 40 faiz üstələməsi deməkdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuata açıqlamasında deyilir ki, əgər birinci islahat paketi nəticəsində minimum əməkhaqqı, təqribən, 600 min nəfəri əhatə etmişdirsə, ikinci islahat paketi nəticəsində 950 min nəfər əhatə olunur. Onun 600 min nəfəri dövlət, 350 min nəfəri özəl sektorda çalışır.

Bu artımların miqyasını təsəvvür etmək üçün bəzi rəqəmləri xatırladaq. Birinci islahat paketi nəticəsində muzdla çalışanların 40 faizinin əməkhaqqında artım edilmişdi, son islahat paketi onların 63 faizini əhatə edir. Ümumilikdə, iki artım nəticəsində Azərbaycanda minimum əməkhaqqı 93 faiz artıb. Yeri gəlmişkən, bu, MDB məkanında minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə ikinci göstəricidir.

Bir çox nüfuzlu iqtisadçılar hesab edirlər ki, ikinci sosial paketin tətbiqi özəl sektorda da işçi qüvvəsinin cəlb olunması üçün əlavə stimul yaradır. Son altı ayın statistikasına nəzər yetirəndə, bu sahədə müsbət tendensiyanı görmək mümkündür. Məsələn, ilk növbədə, əmək müqavilələrinin sayı, təqribən, 7 faiz artıb. Digər tərəfdən, əməkhaqqı fondunda 18 faiz artım yaranıb. Bu, özəl sektorda 23 faiz artım deməkdir.

Əlbəttə, hər islahatın uğur meyarlarından biri onun ardıcıl şəkildə aparılmasıdır. Əgər sosial sahədə həyata keçirilən islahatlara nəzər yetirsək, aydın olar ki, ilin əvvəlində atılan addımlar daha çox pensiya, müavinət və təqaüdlərin artımına yönəldildi və 3 milyon nəfəri, başqa sözlə desək, ölkə əhalisinin 30 faizini əhatə etdi. İki sosial paketin birlikdə əhatə dairəsi isə əhalinin 40 faizini təşkil edir.

Dövlətimiz əhalinin həssas təbəqəsi olan pensiyaçıları da mütəmadi olaraq sevindirir. Əgər pensiyalar bu il martın 1-dən 160 manata çatdırılmışdırsa, oktyabrın 1-dən həmin məbləğ 200 manata qaldırılıb. Birinci islahat paketi çərçivəsində maddi artımlar, təqribən, 230 min, ikinci islahat paketi 660 min pensiyaçını əhatə edib. Bununla yanaşı, müavinət və təqaüdləri də nəzərə alsaq, onda həyata keçirilən islahatlar 300 min əlili, 500 min qaçqını, 100 min tələbəni əhatə edir.

Bəziləri, xüsusilə Azərbaycan iqtidarının parlaq uğurlarını görmək istəməyən radikal müxalifətin "söz qəhrəmanları" hesab edirdilər ki, artımlar ölkəmizdə istehlak mallarının, bütövlükdə, inflyasiyanın kəskin artımına səbəb olacaq. Lakin, bunun tam əksinə oldu. Bu gün Azərbaycanda inflyasiyanın səviyyəsi kifayət qədər aşağıdır. Prezident İlham Əliyev iqtisadi müşavirədə bu məsələ ilə bağlı deyib: "İnflyasiya çox aşağı səviyyədədir, 2 faizdən bir qədər çoxdur. Nəzərə almalıyıq ki, bu il çox ciddi və böyük sosial paket reallaşdı – 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əməkhaqları, müavinətlər artırıldı. Yəni, bu məqsədlər üçün milyardlarla manat vəsait xərclənib və bu vəsait sosialyönümlü istiqamətə nəzərdə tutulurdu. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu, çox yaxşı göstəricidir. Əhalinin gəlirləri yenə də inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir".

Dövlətimizin başçısı bu məsələni konkret faktlarla şərh edərkən bildirir ki, minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycan bu gün MDB məkanında birinci, orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir. Lakin, bu, Azərbaycan dövlətini tam qane etmir. Daha böyük hədəflər irəli sürülür, dövlət başçısının tapşırığı il onların icra mexanizmləri müəyyən olunur.

Son günlər aparılan sorğular əyani şəkildə göstərir ki, əhalinin əksəriyyəti Azərbaycanda həyata keçirilən siyasəti birmənalı şəkildə dəstəkləyir.

**Sərraf Orucov, Qarabağ müharibəsi veteranı, üçüncü dərəcəli müharibə əlili:**

– Bütün Qarabağ müharibəsi veteranları kimi, mən də Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin daxili və xarici siyasətindən yerdən–göyə qədər razıyam. Məni xüsusilə əhalinin aztəminatlı təbəqələrinin maddi rifah halının yaxşılaşdırılması üçün görülən davamlı işlər çox sevindirir. Şəxsən, mənim ailə büdcəm aparılan islahatlar nəticəsində xeyli artıb.

**Xavər Həbibova, 83 yaşlı Bakı sakini:**

– Mən yeddi uşaq böyüdüb tərbiyə etmişəm. Təəssüf ki, özümün işləmək imkanım olmayıb, yəni evdar qadın olmuşam. Son bir neçə ayda dövlətimizin başçısının tapşırığı ilə pensiyam iki dəfə artırılıb. Buna görə də möhtərəm Prezidentimizə dərin minnətdarlıq etmək istəyirəm. Əziz Prezidentimiz hər birimizin ümid və güvənc yeridir.

Hörmətli oxucu, biz yalnız iki vətəndaşın fikir və düşüncələri ilə sizi tanış etdik. Həqiqət budur ki, hazırkı iqtidarın xalqımızın arzu və mənafelərinə xidmət edən siyasəti əhalinin ən geniş təbəqələrinin dərin razılığına səbəb olub.

Sonda bir məqamı vurğulamaq lazımdır. Prezident İlham Əliyev son müşavirədə vurğuladı ki, gələn ilin büdcəsi həm sosialyönümlü, həm də investisiyayönümlü olacaq. Bu, o deməkdir ki, 2020-ci ildə əhalinin daha geniş təbəqələrinin rifahının yaxşılaşdırılması üçün yeni uğurlu layihələr, əməli tədbirlər həyata keçiriləcək.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***